# YAYLIQ




Q ı z:

Anamdan bir yaylıq aldım,
Heç bilmirəm harda saldım.
Səndədirsə, ver yaylığı,
Yaylıq salar ayrılığı, yar, yarcan,
Gözəl oğlan, ver yaylığı.

O ğ l a n:

Yaylığını tanı, ay qız,
Məndə yaylıq hanı, ay qız.
Kim dedi yaylıq məndədir,
Bəlkə qalıb çəməndədir, ay gözəl,
Gəl axtaraq yaylığını.

Q ı z:

Ay kələkbaz oğlan, oğlan,
İnciyərəm səndən, inan.
Gəlməsə yaylıq qarşıma,
Xəbər verrəm qardaşıma, yar, yarcan,
Gözəl oğlan, ver yaylığı.

O ğ l a n:

Qurban olum göz-qaşına,
Gedib demə qardaşına.
Sevgilimsən, gəl incimə,
Yaylıq məndədir, gözəl, yar, yarcan,
Ay sevgilim, al yaylığı.